**UOT 141.319.8**

# BƏZİ ŞƏRQ XALQLARININ DİNİ-FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNDƏ HƏYATIN MƏNASI MƏSƏLƏLƏRİNƏ FƏLSƏFİ BAXIŞ

**Fərəh Sadıqova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant
farah.jamalova@gmail.com
DOI:10.30546/ifs.2022.1(38).128

**Xülasə.** Məqalədə Şərq xalqlarının mədəniyyət tarixində və fəlsəfi dünyagörüşü çərçivəsində həyat və onun mənası məsələsi araşdırılır. Bu barədə düşüncələr Şərq xalqlarının davranışlarına və dünyaya baxışlarına təsir göstərir. Xüsusilə, Şərq xalqlarında kollektiv şüurun daima aktual olması bunu bir daha təsdiq edir. Bu baxışlar arasında müəyyən fərqlər olsa da, onları birləşdirən ümumi cəhətlər də çoxdur. Ona görə də məqalədə bu fərqləri və oxşarlıqları müqayisəli təhlil etməklə ortaya qoymağa səy göstərilmişdir.
**Açar sözlər:** həyat, həyatın mənası, Şərq fəlsəfəsi, İslam, Buddizm, Dao, sufilik, Konfutsi təlimi.

## Giriş

Tanatologiyanın banilərindən biri olanM. F. Bişa deyirdi ki, "həyat ölümə müqavimət göstərən hadisələrin məcmusudur" [4, s.67]. Bu baxımdan, həyat və ölüm anlayışları bir-birini istisna edirlər. Həyat uğrunda mübarizə, əslində, ölüm burulğanına düşməkdən xilas olmaq üçün edilən müqavimət deməkdir. Ölümdən xilas edən bütün fəaliyyət növləri həyatın özünü səciyyələndirir. Bu, yalnız fiziki mənada özünü doğruldur. Fəlsəfi baxımdan, həyatı dərk etməyin yolu ölümü dərk etməkdən keçir. Həyat olmadan da ölümün nə olduğunu dərk etmək mümkün deyildir. Bu baxımdan, həyat və ölüm anlayışları bir-birinə bağlı anlayışlardır.

Həyatın mənası və insan həyatı problemləri insanın həyatı və fəaliyyəti ilə sıx əlaqəli olduğu üçün bir-birinə bağlıdırlar. Həyatı və onun mənasını anlamaq üçün - Reallıq nədir? "Mən nə üçün yaşayıram? Həyatın mənası nədir? Ruh ölümsüzdür, yoxsa ölümlü? Biz hardan gəlmişik və hara gedirik?" – kimi suallara cavab tapmaq və varlığın son mənasını dərk etmək lazımdır. İnsan, həyatın mənasının subyekti kimi, öz həyatını dərk etmənin və varlığın obyektivləşdirilmiş mənasını mənimsəməyin nəticəsidir. Müəyyən bir şəxs tərəfindən mənimsənilən varlığın obyektiv mənasının nəticələri özünü insanın mənəvi fəaliyyəti (mənəvi mədəniyyətin dəyəri kimi), ünsiyyəti, davranışı və hərəkətlərində (ünsiyyət və davranışın mədəni dəyəri kimi), obyektiv fəaliyyətində (obyektivləşdirilmiş mədəni dəyərlər kimi) büruzə verir.

Həyat və həyatın mənası məsələsi müxtəlif mədəniyyətlər, dini dünyagörüşləri və fəlsəfi təlimlərdə geniş şərh olunmuşdur. Bu kontekstdə ortaya qoyulan modellər müəyyən mədəniyyətlərdə mövcud olan insanların davranışlarını və düşüncələrini formalaşdırır. Bu məsələ ilə bağlı fərqli yanaşmalar fərqli mədəniyyətlərin və fərqli davranış normalarının, dəyərlərin meydana çıxmasına səbəb olmuşdur. Buna görə də həyat və həyatın mənası məsələsinə Şərq və Qərb mədəniyyətləri, dini dünyagörüşləri və fəlsəfələri kontekstində baxmaq daha əhəmiyyətlidir.

***İnduizmdə həyat və həyatın mənası məsələsi***

Riqvedada həyat verən element "asu" (həyatın nəfəsi) adlanır. Riqveda və Avestada Asura və ya Ahura tanrılar panteonun adı da buradan irəli gəlir. Onlar daha çox işıq və atəşlə, Günəş və Yerdəki nemətlərlə bağlı anlayışları ehtiva edirlər. Deməli, Vedalarda və Avestada "həyat" anlayışı, əsasən, maddi həyatı, nemətləri, işıq və istiliyi tərənnüm edən xeyir kimi səciyyələndirilir. Bütün anlayışları istisna edən ölüm ilə, şər ilə eyniləşdirilir.

Sonrakı Veda ədəbiyyatlarında mədəni transformasiya prosesləri ilə əlaqədar olaraq "həyat"ı ifadə edən "asu" termini "prana" (solğun) termini ilə əvəz olunur. "Prana" insanın fiziki həyatını

təmin edən başlanğıc kimi bədənin təbii funksiyalarını təmin edir və həmçinin insanın fiziki varlığını mənəvi sahəyə bağlılığını təşkil edir. Prananı mənəvi sahəyə bağlayan həyat enerjisi "jiva" (rus dilində "jiv, jizn") adlanır. O, prananın funksiyalarının yerinə yetirilməsinə təsir göstərsə də, onun fövqündədir. "Jiva" Tanrı Brahmanın universal ruhu olan "Atman"ın bir zərrəsidir. Bu zərrə, Nirvana mərhələsinə çatanda Universal Atmana qovuşaraq onda qərq olur. Bu baxımdan, hinduizmə görə maddi həyat universal həyatın bir hissəsi, Tanrı Brahmanın emanasiyasıdır [1, s.9-10].

Vedantaya görə, insan həyatının mənbəyi Brahmana bağlıdırsa, o zaman onun həyatının mənası da onunla əlaqədar olmalıdır. İnsan öz həyatının mənbəyi olan Brahmana qovuşmaq üçün onun müəyyən etdiyi universal qanuna (rita, dharma) tabe olmalıdır. Təbiətdə və cəmiyyətdə (kasta sistemi) mövcud olan harmoniya bu qanunun nəticəsidir. İlahi qanun, yalnız fiziki deyil, həm də mənəvi harmoniyanı təmin etdiyi üçün Veda ədəbiyyatından irəli gələn bütün qanun, norma və əxlaqi dəyərlərə itaət zəruri xarakter daşıyır. Burada insanın üzərinə böyük məsuliyyət düşür. Çünki, o öz seçimi ilə, öz gələcək karmasını (taleyini) qurur. Bu baxımdan, hər bir insanın həyatının mənası, daha çox, onun mövcud həyatı ilə deyil, öz əməlləri vasitəsilə qurduğu gələcək həyatı ilə bağlıdır. Buna görə də o, həyatının mənasını mövcud kasta sistemini dəyişdirməkdə deyil, onun "keçilməz divarlarını" ölümlə aşıb, gələcək həyatı qurmaqda tapmaq lazımdır. Sanki insan öz həyatında "ölüm divarı"nın arxasında olan gələcək arzuolunan həyatını yaradır. Ancaq bu, həyatın əsl mənası deyildir. Həyatın əsl mənası reinkarnasiya halqasından (Sansara) qurtulub Mütləq Atmana qovuşmaqla əsl səadəti və azadlığı əldə etməkdir [5, s.33].

Vedantaya görə, dünya bir xəyal (maya) olduğu üçün onda olan hər şey yalandır. Bu baxımdan, əsli olmayan yalanda həyatın mənasını axtarmaq da cahillikdir. İnsan öz arzu və istəklərinin çərçivəsində azad ola bilmədiyi üçün həyatın mənasını da bu çərçivədə tapa bilməz. Çünki, həyatın mənası transsendental mənşəlidir.

Həyat, Brahmanın manifestisiyası olduğu üçün, insan da onun manifestisiyasıdır. Bu baxımdan, insanın həyatının mənası onun özünüdərki ilə bağlıdır. Xeyir və şər də buradan qaynaqlanır. Yəni, insan özünüdərk edərək həqiqətə yaxınlaşmaqla xeyirin, bundan bixəbər olmaqla şərin təmsilçisinə çevrilir. Burada xeyir həqiqət ilə, həqiqət biliklə əlaqəli olduğu üçün bu anlayışların da həyatın mənası ilə birbaşa əlaqəsi vardır.

***Buddizmdə həyat və həyatın mənası məsələsi***

Buddizmdə maddi həyatın mənşəyi, insana həyat verən və maddi varlığa aid olan hər şeyə nəzarət edən "skandha" adlı maddi substansiya ilə bağlıdır. Beş elementin vəhdətindən ibarət olan "skandha", Anaksimandrın "apeyron" adlı elementinə bənzəyir. Lakin, "skandha" enerji mənbəyi deyildir. Həyat enerjisinin mənbəyi atomik strukturlu "samskrit-dharma"dır. "Skandha" adlı maddi substansiya öz enerjisini "samskrit-dharma"dan alır [1, s.10]. Lakin, Buddizmdə "samskrit-dharma"nın mənşəyinin maddi, yoxsa qeyri-maddi olduğu sual olaraq qalır.

Buddizmdə insan həyatının ən yüksək mənasını dərk etməyə aparan yol Buddanın "dörd böyük həqiqət" və "səkkiz guşəli yol" təlimindədir. Buddizmə görə, insan həyatdan zövq almağa çalışsa da onun həzləri yalandır və daha doğru əzablarla doludur. Həyatda əzabdan başqa bir şey əldə etmək mümkün deyildir. Həyatın mənasını həyatda axtarmaq, əzabda həzz axtarmaq kimidir (mazoxizm). Bu istək, insanı daha çox günah və cinayətlərə sövq edir və nəticədə, daha çox əzab çəkməyə səbəb olur. Həyatın mənasını günah, cinayət, əzab ilə müşayiət olunan həzzdə axtarmaq cahillikdir. Deməli, həyatın mənasını dünya həyatının fövqündə axtarmaq lazımdır. Bunun üçün insan özünün neqativ keyfiyyətlərindən xilas olmalıdır. Eqoistlik, kin, tamah kimi mənfi keyfiyyətlər ilə əzabdan qurtulmaq mümkün deyildir. Qurtuluş yolu, ilk növbədə, insanın şüurunun neqativ keyfiyyətlərindən xilas olması və heçlik halına gəlməsi ilə başlayır. Lakin insanın bioloji varlıq kimi müəyyən maddi tələbatlarının olduğunu nəzərə alaraq Buddizm təlimi varlıq və heçlik arasında "orta yol" əxlaq fəlsəfəsini yaradır. Həyatın mənası, hər iki ifratın arasında yer alan "orta yol" fəlsəfəsindədir. Bu fəlsəfə öz əksini Buddanın "səkkiz guşəli yol" təlimində tapır. Bu yol, həyatın mənasını anlamağa və əzabdan qurtulmağa xidmət edən nirvana yoludur [6, s.34].

Birincisi, "səkkiz guşəli yol" fəlsəfəsinin ilk prinsipi qurtuluşa vəsilə olan doğru bilikdir. Çünki insan çəkdiyi iztirabın nədən qaynaqlandığını bilməsə, ona qalib gələ bilməz.

İkincisi, düzgün qərar verməkdir. İnsan bir həqiqəti dərk etməlidir ki, həyatının keyfiyyəti onun düşüncələrindən asılıdır və düşüncələri dəyişdikcə, həyatını da dəyişəcək. İnsan iradə azadlığına malik olduğu üçün hər şeyə görə öz vicdanı qarşısında cavabdehdir. O, nə istədiyinə öz qəlbi, dili və əməli ilə qərar verməlidir.

Üçüncüsü, insan yalan danışmamalıdır. İnsanın nitqi onu əks etdirməklə yanaşı, onu dəyişdirir. Bunun üçün o, nəyə görə mütəmadi şəkildə yalan danışdığını qeyd etməli və bunun niyə belə olduğunu dərindən düşünməlidir. Çünki yalan söz insanın xislətini dəyişərək onu eybəcərləşdirirsə, doğru söz onun şüurunu işıqlandırıb aydınlaşdırır.

Dördüncüsü, insan düzgün əməl sahibi olmalıdır. O, öz əməlləri ilə insanlara və ətraf mühitə zərər vurmamalıdır. Bunun üçün o, Buddizmin əxlaq kodeksinə uyğun olaraq qəzəbini cilovlamalı, oğurluq etməməli, cinsi həvəsinə hakim olmalı, məstedici maddələrdən çəkinməli və yalan danışmamalıdır.

Beşincisi, insan Buddizmin hökmlərinə müvafiq olaraq düzgün həyat tərzi sürməlidir.

Altıncısı, insan, düzgün bir şeyə cəhd etməlidir. Onun mənəvi yüksəlişi sərf olunan cəhddən asılıdır. İnsan kamillik yolu ilə getmək üçün cəhd etməli, şüuruna pis fikirlərin daxil olmasına imkan verməməli, mövcud olan şəri oradan qovmalı, özündə xeyirxah fikir və əməllər yetişdirib, özünü təkmilləşdirməlidir. Bunun üçün səbir və əzm lazımdır.

Yeddincisi, insanın fikirləri doğru olmalıdır. Çünki insan nə düşünürsə odur. Düşüncələrin yanlış iqtiqamətlərə yönəlməsinin qarşısını almaq üçün onların bir obyekt üzərində köklənməsini öyrənmək lazımdır (meditasiya).

Səkkizinci, düzgün təfəkkür etməkdir. Doğru təfəkkür reallığı görmək və dərk etmək üçün lazım olan tarazlığa və fikir aydınlığına gətirib çıxarır, fikir qarışıqlığını nizamlayır. Bu, bədənə tam nəzarət tələb edir ki, heç bir xarici və ya daxili müdaxilə doğru təfəkkürdən yayındırmasın (meditasiya).

***Konfutsi və Dao təlimində həyat və həyatın mənası məsələsi***

Bütün Dao və Konfutsi ədəbiyyatında canlı varlıqlara həyat verən "Çi" elementindən bəhs olunur. Bu element bütün canlı və cansız varlıqlarda (Yer, kosmos, daş və s.) olduğu üçün Çin mentalitetində hər şey canlıdır. İnsan bədənində onun mərkəzi köbək nahiyəsidir. Kosmosda olan kişi-qadın (yan-in) başlanğıclarının mənşəyi də "yüan çi" elementindən irəli gəlir [1, s.11]. Bu baxımdan, Çin dünyagörüşündə hər şey canlıdır və deməli, həyat fenomeni bütün canlı-cansız varlıqlara aiddir.

Dao təliminə görə, insanın həyatının mənası dao (yol) ilə harmoniyada olmaq və ona uyğunlaşmaqdır. Bütün təbiət və kosmos dao ilə harmoniyadadır. Bütün dünyanı yaradan və boşluqla eyniləşdirilən ilk dao substansiyası dünyanın mövcudluğunu təmin edən universal dünya qanunudur. İnsan dao tərəfindən müəyyən edilən Universal nizamın pozulmaması üçün hadisələrin və proseslərin təbii gedişatına qarşı çıxmamalıdır. Çünki insanın həyat enerjisi (tsi) daonun mahiyyətini əks etdirən "de" başlanğıcın tərəfindən müəyyən edilir [5, s.56].

İnsan da öz həyatının mənasını daoda axtarmalıdır. Çünki həyatın mənası əbədiyyəti əldə etməkdir. Əbədiyyət daoda qərq olaraq daoya çevrilməklə mümkündür. Lakin insan bu mərhələyə çatana qədər dao təliminin əxlaq normalarına əməl etməlidir (canlılara əzab verməmək, xeyirxah olmaq və s.). Əgər insan tez xəstələnib qocalırsa, deməli, dao əxlaq normalarından və onun fəlsəfəsindən uzaq düşmüşdür. Daoya yaxınlıq, insanın sağlamlığı və uzunömürlülüyü ilə əlaqələndirilir. Bu baxımdan, sağlamlıq və uzunömürlülük müdrikliyin, xeyirxahlığın əlaməti kimi ortaya çıxır. Deməli, daoya yaxınlaşmaqla əldə olunan sağlamlıq və uzunömürlülük həyatın mənasını təşkil edir. İnsanın varlığın ali mənasını əldə etməsi, ona öz əqli yönümlü həyatının hüdudlarını aşmağa və mükəmməl müdriklik qazanmağa imkan verir.

İnsanların daonun mənasını anlamaması, onların şüurunda həyatın mənası ilə bağlı suallar doğurur. Bu mərhələ - sükunət mərhələsidir. Məhz bu sükunətin içindən daonu ifadə edən daxili səs

peyda olur. O səs insanda onun gözəlliyini, həyatın mənasını və gücünü səciyyələndirir. Bəzən bu səs susur və ya fəal olur. Bir insan çox vaxt daxili səsinə əhəmiyyət vermir, onu qətiyyətlə izləməkdən imtina edir və ya inanmaq istəmir. Əvəzində insan öz həyatını mənalı bir şey kimi təyin etmək üçün güc və nizam-intizamdan istifadə edən, insan həyatının mənasını təhrif edən və insanı çaşqın qoyan bir dünyaya arxalanır. Bunlar onu həyatın mənasını anlamaqdan uzaqlaşdırır.

Konfutsi özü həyatının mənasını uzun sürən axtarışlardan sonra 50 yaşında tapdığını bildirir [5, s.55]. Konfutsiyə görə, insanın həyatının mənası onun özündə olan “jen” başlanğıcını dərk etməkdə və ona riayət etməkdədir. “Jen” insana özünü, sonsuzluqla və hər kəslə əlaqəsini tanımağa imkan verir. O, adi bir insanı "nəcib insana" çevirə bilən yeganə təlim-tərbiyə yoludur. O, kənardan deyil, insanın özündən qaynaqlanır. İnsan özünü maarifləndirib tərbiyə etdikcə, bu imkanlar onda aşkar olmağa başlayır. Ancaq bir çox insan üçün buna nail olmaq çətindir. Buna görə də Konfutsi “nəcib insan” ilə “cahil insanı” bir-birindən ayırır. Əsilzadə nəcib insanlar vəzifə və qanun barədə, cahil insanlar yalnız mənfəət əldə etmək barədə düşünürlər.

Konfutsi və Lao Tzının dao barədə düşüncələri fərqlənir. Konfutsi üçün dao antropogen, Lao Tzı üçün kosmogen amildir. Konfutsi üçün dao fəal şəkildə insan subyekti tərəfindən yaradılıb, ata məhəbbəti, övlad itaəti üzərində aşkar olan “jen”dən əmələ gəlirsə, Lao Tzı üçün dao təbii və kortəbii olaraq yaranır [5, s.57]. Bu baxımdan, Konfutsi və Lao Tzının həyatın mənası ilə bağlı baxışları fərqlənir. Konfutsi həyatın mənasını sosial-əxlaqi dəyərlərin qorunub saxlanılmasında və Səma-altı imperiyanın altında ideal cəmiyyətin qurulmasında görürsə, Lao Tzı onu fərdi qurtuluş yolunda və daxili ünsiyyətdə görür.

***Yəhudilikdə həyat və həyatın mənası məsələsi***

Əhdi-Ətiq kitabında (Tövrat) həyat anlayışı ilə bağlı dörd sinonim sözdən istifadə olunur. Canlıları ifadə etmək üçün istifadə olunan söz Elohimin (yəni Allahın) sifətlərindən biri olan "Hayyim"dir (İslamda Allahın “Hayyum” sifəti). Yel mənasını verən "ruah" (ruh) sözü, həyat-verən, insanda mövcud olan "mən" anlayışının ekvivalentidir. Həyat-verən güc baxımından istifadə olunan əsas söz "nefeş"dir (nəfəs). Lakin bu həyati gücün varlığı özündən deyil, onu verib alan Allahdandır (I. Samuel, 2 / 6; Iş, 4 / 9; 34 / 14; Zəbur, 49 / 8-9). Həyatın insanda mənbəyinin qəlb və ya qan olduğu düşünülür [1, s.9].

Yəhudi fəlsəfəsi çərçivəsində həyatı dərk etmək üçün müxtəlif variantlar təqdim olunur: Allahı tanımaq (İkinci Qanun 4:39; Məz. 101:3), ; 2) onu sevmək (İkinci Qanun 6:5) və əmrlərinə əməl edərək saleh həyat tərzi sürmək (Pr. 13:25).

Ravvin Şimşon Refael Girş məktublarında yazır: “*İnsanın məqsədi Allahın iradəsini yerinə yetirmək və dünyanı Tövrata uyğun idarə etməkdir. Allah Tövrat vasitəsilə insanı qürur, qərəz və maddi dünyadan həzz almaq təhlükələrindən xilas edir (5-ci məktub). İsrailin (yəhudi xalqının) məqsədi bütün digər xalqlara öz nümunələri ilə (yəni Tövratı yerinə yetirməklə) sübut etməkdir ki, bəşəriyyətin əsl məqsədi tək Allaha qulluq etməkdir (məktub 7). Allaha qulluq etməyin ən yaxşı forması qəlbə xidmət etməkdir, yəni Tövratı öyrənməklə qonşusuna hörmət (sevgi və salehlik) tərbiyə etmək, şəri yaxşılıqla əvəz etməkdir. İnsan özünü təkmilləşdirərək Allaha məhəbbətini nümayiş etdirir, Ona layiqli xidmət göstərir (13-14-cü məktublar)*.” [7].

Ravvin Menaxhem-Mendel Şneerson məktublarının birində göstərir : “*Tövratı öyrənmək və onun əmrlərinin mənasını dərk etmək hər bir yəhudi üçün hazırlanmış bir vəzifədir. Tövrat həm həyat yolu (fəaliyyət), həm də onun dərk edilməsinin açarıdır (hərəkətə rəhbərlik edən bilik). O, insan həyatının mənasını açıq şəkildə göstərir: Tövrata uyğun yaşamaq, onun göstərişlərini yerinə yetirmək və qadağalarına riayət etmək daim bütün əmrləri yerinə yetirmək çətindir. Lakin həyatı məqsədsiz edən, onu qorxu və qeyri-müəyyənliklə dolduran və yaxşı əməlləri dəyərsizləşdirən maddi dünyanın qaranlığından xilas olmaq lazımdır. Tövratı yerinə yetirmək bütün bunlardan azad olmaq, mənalı bir həyat yaşamaq, bu dünyaya elm-əməl nuru və harmoniya gətirmək, öz tərəfimizdən Allaha doğru addım atmaq deməkdir*.” [8].

***İslamda həyat və həyatın mənası məsələsi***

Quranda “həyat” (hayevan) anlayışı bir tərəfdən fanilər (insan, heyvan, bitkilər) ilə əlaqədar "yaşamaq, canlı və diri olmaq" mənasını, digər tərəfdən Allahın “Hay” (əzəli və əbədi olan) əbədi sifətini ifadə edir. Allah “Hay” sifəti ilə mövcud olan həyatın yaradıcısı və onun varlığını təmin edəndir. Təbiətdə olan həyatın səbəbi özündən olmadığı üçün o, öz mövcudluğunu varlığı özündən olan (Kayyum) “Hay” Allaha möhtacdır. Mövcud olan həyat keçici, Allahın həyatı isə əbədidir. Bütün canlıları həm yaşadan, həm də öldürən Allahdır. Həyatda yaşayan hər bir insan sonda Allaha dönəcəkdir. Bəşəriyyətin həyatı Qiyamət günündə bitər və Allah ölüləri yenidən dirildər. Quranda ölüb dirilmə halı, insanın hər gün yatıb oyanması, birkilərin qışda ölüb yazda dirilməsi ilə müqayisə edilir [2, s.16].

Quranda canlılığı təmin edən güc ruhdur. Həyat və ya canlanma Allahın nəhv aktından (nəfəs üfürmək) sonra baş verir. Allah insanın (Adəmin) bədənini düzəldib "ona öz nəfəsini verdi" (əl-Hicr 15/29; Sad 38/72). Hz. İsanın anası Məryəmə Ruhul Qüds tərəfindən gətirilən ilahi sözdən yaradılması (Nisa 4/171; Ənbiya 21/91, Təhrim 66/12, Bəqərə 2/87, 253), yaxud Hz. İsanın gildən hazırladığı quşu Allahın izni ilə canlandırması (əl-İmran 3/49; əl-Maidə 5/110) həyatın yalnız təbiət qanunları çərçivəsində deyil, bəzən onların fövqündə baş verdiyinin göstəricisidir.

Həyat və cansızları ayıran sərhəd haqqında müsəlman mütəfəkkirləri müxtəlif fikirlər irəli sürürdülər. Onlar cansızdan canlıya keçid zamanı psixi faktora fikir verirdilər. Farabi və sonra İbn Sina hesab edirdilər ki, canlı həyata keçid mineral aləmdən bitkilər aləminə keçid mərhələsində baş verir. Onlara görə, həyatverici güc, səmavi zəkaların ən üstünü olan fəal zəkadan (Cəbrail) gəlir. Bəzilərinə görə, həyat təsadüf nəticəsində (İbn Tufeyl), bəzilərinə görə isə növlərin transformasiyası nəticəsində meydana çıxmışdır. Onlar hesab edirdilər ki, müəyyən iqlim şəraitində "qıcqırdılmış palçıqdan" toxum, döl və digər embrioloji proseslər baş vermiş və zaman keçdikcə canlı həyat kortəbii şəkildə formalaşaraq inkişaf etmişdir. Onların bu baxışları ilə təkamül nəzəriyyəsi arasında müəyyən paralellər olsa da, növlərin bir-birindən təkamül yolu ilə əmələ gəlməsi fikri yoxdur.

Biruni, İxvan əs-Səfa, İbn Miskeveyx, İbn Xaldun kimi mütəfəkkirlər həyat gücünün formalaşmasını və inkişafını Universal Ruhun (Cəbrail) dünyada müxtəlif təzahürləri kimi izah edirlər. Cansız (mineral) və canlı (bitki) arasında yerləşən aralıq növ olan mərcan mineralı, cansızların ibtidai canlı orqanizmə necə yaxınlaşa biləcəyini sübut edir. Mevlanaya görə, sadədən mürəkkəbə doğru olan yaradılış prosesində, cansız minerallarin strukturunda artan mürəkkəbliyin təkamülü canlı orqanizmlərin meydana çıxmasına səbəb olmuşdur. Bəzi mütəfəkkirlər (xüsusilə, əl-kimyaçılar) hesab etmişlər ki, mineralların özləri də canlı varlıqlardır.

Sufilərin nəzərincə, ilahi təzahür və nurdan məhrum olan ruh və ya qəlb ölüdür. Çünki onlar həyatın mənbəyidir. Bu baxımdan, həyat metafizik bir başlanğıcdır. Sufilər hər şeyi öz əksində axtarırlar. Onların fikrincə, həyatı nəfsinə bağlı olan bir şəxs diriykən ölüdürsə, həyatı həqiqətə qovuşan şəxs ölümündən sonra da diridir. Sufilər tez-tez qəlbin mövcud olması üçün nəfsin məhv edilməsinin lazım olduğunu iddia edir, onları iki əks qüvvə kimi görürlər. Nəfs (dünyavi istəklər) gerçək həyata qovuşmağı əngəllədiyi üçün onun aradan qaldırılması lazımdır. “Ölmədən əvvəl ölmək” düşüncəsi ilə başlayan bu həyatı sufilər ikinci həyat adlandırırlar. O, anadan olmaqla və Allahın həyat sifətini (Hay) əks etdirməklə reallaşır. Quranda "Sən bizi iki dəfə öldürdün və bizi iki dəfə diriltdin" (əl-Mömin 40/11) ayəsində ikinci dirilmə buna işarədir. İbn əl-Ərəbi bir şeyin canlı olmasını təmin etmək üçün biliyi bir şərt kimi qəbul edir və buradan çıxış edərək maddənin də diri olduğunu iddia edir. Çünki hər şey Allahı xatırladır. Bir şeyin Allahı xatırlatması üçün onu bilməli və onu bilmək üçün canlı olmalıdır. O, yağışla torpağa həyat verildiyini ifadə edən ayələrdən çıxış edərək, maddənin də həyat daşıyıcısı olduğunu müdafiə edir [3, s.17]

**Nəticə**

Şərq xalqlarının mədəniyyətinin və fəlsəfi dünyagörüşünün müqayisəli tədqiqi göstərir ki, həyat və onun mənası ilə bağlı baxışların əksəriyyəti teoloji və əxlaqi aspektdən dəyərləndirilmişdir. Şərqin müdrik-mistiklərinin tətbiq etdikləri mənəvi təfəkkür yolu varlığın ali

mənasını dərk etməkdə sistemli, məqsədyönlü və metodik qaydada nizamlanmış "ruhun yüksəldilməsi" təcrübəsi ilə səciyyələnir. Dini mistiklərin müdrikliyi bütövlükdə idrak subyektinin subyektiv ruhun Vahid, Dao, Brahman, Varlığın Ən Ali müstəvisinə vəcdlə yüksəlişi yolunda psixofiziki transformasiyası kimi mentalitet şəklində meydana çıxır. Şərq dini fəlsəfəsində hikmətin özünəməxsus ifadəsi isə insan şüurunu saf, təbii, bütöv bir vəziyyətə gətirən təfəkkür yoludur.

Bu yanaşma dini xarakterlidir. Bu yanaşmaya görə, insan həyatının mənasını artıq insan yarandığı zaman Tanrı vermişdir. Tanrı insana iradə azadlığı bəxş etmişdir. İnsanın həyatının mənası Tanrıya yaxınlaşmaqdır. Bunun üçün ilahi mənbələrdə əks olunan sosial ədalət prinsiplərinə maksimum əməl etmək və mənəvi paklığı günahlardan qorumaq əsas şərtdir. Varlığın özü və onda olan hər bir şey, həmçinininsanın özü müəyyən bir məna daşıyır. Buna görə də həyatın özündə məna vardır. İnsan şüurlu varlıq olduğu üçün həyatın mənasını özünün idrakının əsas problemi kimi qəbul etmişdir. İnsan Kainatın və mücərrəd tarix fenomeninin içində olsa da, öz şüuru ilə onu kənardan bir obyekt kimi dəyərləndirməyə çalışır. Bu fəlsəfənin və onun kateqoriyalarının yaranmasına səbəb olur. Deməli, həyatın mənasının dərk olunmasında fəlsəfənin tarixi rolu müstəsnadır.

Dünya həyatının mənasının inkarı fəlsəfi fikir tarixində dəfələrlə özünü göstərmişdir. "Dünya fani dünyadır" – tezisi fəlsəfi dünyagörüşü tarixində dərin kök salmışdır. Bu yanaşma, xüsusilə, asketizmi təbliğ edən cərəyanlar, dinlər və fəlsəfi təlimlər arasında geniş yayılmışdır. Onlar dünyanın xaotik və absurd, insan varlığının isə absurd və mənasız olduğunu iddia edirlər. Bu yanaşma Şərqdə geniş yayılmışdır.

Həyatın mənasının həyatın hüdudlarından kənarda olduğunu iddia edən yanaşma, həyatın mənasını konkret insan həyatının hüdudlarından kənara çıxarır, onun varlığının mənasını metafizik məqsədlərə bağlayır. Bu baxımdan, insan yaşadığı həyatın mənasını yaşadığı zaman-məkan kontekstində deyil, onun fövqündə görür.

**İstifadə olunmuş ədəbiyyat/References**

1. Kutluer, İlhan. Hayat. // [Elektron resurs] / İslam Ansiklopedisi. Türkiye Diyanet Vakfı. URL: https://cdn2.islamansiklopedisi.org.tr/dosya/17/C17005762.pdf

2. Topaloğlu, B. Hak // [Elektron resurs] / İslam Ansiklopedisi. Türkiye Diyanet Vakfı. C.16, s. 549-550. — URL: https://cdn2.islamansiklopedisi.org.tr/dosya/16/C16005755.pdf

3. Uludağ, S. Tasavvufda hayat. // [Elektron resurs] / İslam Ansiklopedisi. Türkiye Diyanet Vakfı. URL: https://cdn2.islamansiklopedisi.org.tr/dosya/34/C34023215.pdf

4. Биша, Мари Франсуа Ксавье. Физиологические исследования о жизни и смерти : С прим. пер. и со ст. «О жизни, трудах и значении Биша» / Пер. с фр. П. А. Бибиков — Санкт-Петербург : Тип. И. И. Глазунова, 1865. — LVIII, 458 с.

5. Вильданов У.С., Смысл жизни человека: гносеологический анализ: монография (Вильданов Х.С., Вильданова Г.Б.). – Уфа: Изд-во БГПУ, 2012. – 190 с.

6. Петров, Г.В. Философия смысла жизни. Псков. ПГПИ. 2002. - 80 с.

7. Рав Шимшон-Рафаэль Гирш. Письма с севера. Архивная копия от 15 марта 2013 на Wayback Machine. // Рав Шимшон-Рафаэль Гирш. Жизнь по Торе (сборник статей). http://web.archive.org/web/20130315034015/http://toldot.ru/tora/library/musar-evreiskoe-mirovozzrenie/zhiznpotore/?author=168#g1

8. Ребе Менахем-Мендл Шнеерсон. Избавление. // К жизни полной смысла. Учение ребе Менахема-Мендла Шнеерсона. / Сост. Симон Якобсон. — М.: Лехаим, 1999. http://chassidus.ru/library/jacobson/redemption.htm

## ВОПРОС ЖИЗНИ И О ПОНИМАНИИ СМЫСЛА ЖИЗНИ В ВОСТОЧНОМ ФИЛОСОФСКОМ МИРОВОЗЗРЕНИИ

**Фарах Садыгова**

**Резюме**. В статье рассматривается вопрос жизни и о понимании смысла жизни в контексте культурно-исторического и философского мировоззрения народов Востока. Мысли об этом влияют на поведение этих народов и их мировоззрение. В частности, это подтверждает тот факт, что коллективное сознание всегда актуально у народов Востока. Несмотря на некоторые различия между этими взглядами, есть много общего, что их объединяет. В статье мы попытались выявить эти различия и сходства посредством сравнительного анализа.

**Ключевые слова:** жизнь, смысл жизни, восточная философия, ислам, буддизм, даосизм, суфизм, Конфуций.

## THE QUESTION OF LIFE AND ITS MEANING IN THE EASTERN PHILOSOPHICAL WORLDVIEW

**Farah Sadygova**

**Abstract.** The article deals with the issue of life and its meaning in the context of the cultural, historical and philosophical worldview of the peoples of the East. Thoughts about this influence the behavior of these peoples and their worldview. In particular, this confirms the fact that the collective consciousness is always relevant among the peoples of the East. Despite some differences between these views, there is much in common that unites them. In the article, we tried to identify these differences and similarities through comparative analysis.

**Keywords:** life, meaning of life, Eastern philosophy, Islam, Buddhism, Taoism, Sufism, Confucius.

**Göndərilib: 12.04.2022** **Qəbul edilib: 14.05.2022**